**Yeni Azərbaycan.** - 2024.- 12 mart. - № 46. - S. 7.

## BMT-nin doqquzuncu İqlim Dəyişikliyi Konfransı

### COP9 harada keçirilib?

**Abbasova Günel**

Birləşmiş Millətlər Təşkilatının doqquzuncu İqlim Dəyişikliyi Konfransı 2003-cü il 1-12 dekabr tarixləri arasında İtaliyanın Milan şəhərində keçirilib. Konfransda tərəflər 2001-ci ildə COP7-də yaradılmış Uyğunlaşma Fondundan inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə daha yaxşı uyğunlaşmasını dəstəkləmək üçün istifadə etmək barədə razılığa gəliblər. Fond, həmçinin texnologiya transferi vasitəsilə potensialın artırılması üçün də istifadə olunub. Konfransda tərəflər, həmçinin Əlavə 1 siyahısına daxil olmayan 110 ölkənin təqdim etdiyi ilk milli hesabatları nəzərdən keçirmək barədə razılığa gəliblər.

Qeyd edək ki, iclasda 166 hökumətdən, 4 müşahidəçi dövlətdən, 312 hökumətlərarası, qeyri-hökumət və digər müşahidəçi təşkilatlardan və 191 media təşkilatından təxminən 5000 nümayəndə iştirak edib. Görüş zamanı Tərəflər müxtəlif əlaqə qruplarında və qeyri-rəsmi məsləhətləşmələrdə, həmçinin SBSTA, SBI və COP-un plenar iclaslarında görüşlər keçiriblər. COP9 zamanı Tərəflər Təmiz İnkişaf Mexanizmi çərçivəsində meşəsalma və meşəbərpa fəaliyyətlərinin daxil edilməsi üçün təriflər və metodlar barədə razılığa gəliblər. Torpaqdan istifadənin dəyişdirilməsi və meşə təsərrüfatı üzrə təcrübə təlimatı, habelə Xüsusi İqlim Dəyişikliyi Fondu və Ən Az İnkişaf etmiş Ölkələr Fondu daxil olmaqla, bir sıra məsələlər üzrə qərarlar və nəticələr qəbul ediblər. Bundan əlavə 10 - 11 dekabr tarixlərində yüksək səviyyəli nazirlərin üç dəyirmi masa görüşü keçirilib.

Rəsmi danışıqlarda bir çox qərarlar üzrə razılıq əldə olunsa da, bəzi məsələlər, xüsusən də Təmiz İnkişaf Mexanizmi ilə bağlı məsələlər tam aydınlığa qovuşmadı. Əlaqə qrupları və qeyri-rəsmi məsləhətləşmələrə paralel olaraq, COP9 sübut etdi ki, iqlim dəyişikliyi problemləri bir çox QHT-lərin, biznes qruplarının və akademik icmaların siyasi gündəmində əsas yer tutur. Bu komponentlər sübut edirdi ki, əhəmiyyətli irəliləyiş olmamasına baxmayaraq, iqlim dəyişikliyinin mənfi təsirlərini aradan qaldırmaq üçün yeni mexanizmlər işə başlayır və sürətlənir.

Konfransda qeyd edildi ki, Qlobal İqlim Müşahidə Sisteminin Əməkdaşlıq Mexanizmi inkişaf etməkdə olan ölkələrdə iqlim üzrə qlobal müşahidə sistemlərinin təkmilləşdirilməsi üçün prioritet ehtiyacları qarşılayacaq. Beləliklə, Əməkdaşlıq Mexanizminin bir sıra şərtlərə əsasən həyata keçirilməsi qərara alındı:

1) Uzun müddət ərzində baza stansiyalarının istismarının davam etdirilməsi vacibdir;

2) Homojen uzunmüddətli iqlim qeydləri milli irsi təmsil edir və digər məsələlərlə yanaşı, iqlimin qiymətləndirilməsi və uyğunlaşma tədbirləri üçün əsasların hazırlanması üçün zəruridir;

3) Tarixi məlumatların rəqəmsallaşdırılması, təhlili və mübadiləsi yolu ilə təmin edilə bilən məlumat zənginliyi təmin edilməlidir;

4) Əsas İqlim Dəyişənləri toplusu ilə bağlı məlumatların, məhsulların sərbəst və məhdudiyyətsiz mübadiləsinin qəbul edilmiş etibarlı prinsiplərinə riayət etmək vacibdir;

Qeyd edilən qərarların ardından konfrans yekunlaşıb və tələblərin hər bir komponenti üzrə məlumatın mütəmadi olaraq diqqətə çatdırılmasının vacibliyi vurğulanıb.